TARİXİ NİCDƏ BİR GÜN

Rəsmi vikipedi - açıq ensiklopediya

Nic — Azərbaycan Respublikasının Qəbələ rayonunun inzibati ərazi vahidində qəsəbə.

Udi kəndi kimi tanınan qəsəbə Qəbələ şəhərindən 40 km cənub-qərbdə yerləşir.

Qəbələ rayonu Nic qəsəbəsində yerləşən Yalaşlı məhəllə Cümə Məscidi

* * *

24 iyun 2005-ci ildə Nic kənd inzibati ərazi vahidi tərkibindəki Nic kəndinə qəsəbə statusu verilmiş. Nic kənd inzibati ərazi vahidi Nic qəsəbə inzibati ərazi vahidi adlandırılmışdır.

Nic şəhər tipli qəsəbədir. Qəbələ-Oğuz avtomobil yolunun kənarında Alban-Udi xalqlarının qədimdən yaşayış məskənidir. Ərazisinə görə rayonda birincidir.

* * *

Nicdə ilk udi məktəbi 1854-cü ildə açılıb. Müəllimlər tərəfindən verilən sahələrdən — udilər də var idi. 1931–1933-cü illərdə udilər təhsili doğma dillərində. 1937-ci ildən Azərbaycanda Azərbaycan və rus dillərində, Gürcüstanda gürcü dilində alırlar.

* * *

13-22 aprel 2009-cu il Ümumazərbaycan əhali siyahıyaalınmasına əsasən Nic qəsəbəsində 5,744 nəfər (2,824 nəfəri kişi və 2,920 nəfəri qadınlar) əhali yaşayır. Qəbələ rayon İcra Hakimiyyətinin 2012-ci ilə olan rəsmi məlumatlarına əsasən qəsəbə əhalisinin 50 %-ni udilər, 40 %-ni azərbaycanlılar, 10 %-i isə lezgilər təşkil edir.

Əhalisinə görə rayonda ikinci sayılan qəsəbənin 6200 sakini var. Milli mənsubiyyətinə görə əhalinin 4000-i udin, 2200 nəfəri azərbaycanlılardır. Azərbaycanlılar Yalanşlı və Abdal məhəllələrində yaşayırlar.

* * *

Kənddə hər həftə sonu-bazar günü ətraf kənd və rayon sakinlərinin iştirak etdiyi, kənd, rəsmiləşdi, yarmarkası keçirilir. "Nic bazarı" adı ilə tanınan yarmarkaya nəinki ətraf rayonlardan, hətta Bakıdan və Sumqayıtdan ticarətə gələnlər olur.

* * *

Nic kəndində bir kilsə İndi Nic qəsəbəsində Udi Mədəniyyət mərkəzi fəaliyyət göstərir. Alban kilsəsi və digər abidələr var. İbtidai sinif şagirdləri üçün udi dili də tədris olunur.

* * *

Rayonun ən iri fındıq bağları məhz bu qəsəbənin yaxınlığındadır. Hər il ətraf kəndlərin də sakinləri mütəşəkkil meyvə yığımına gəlir. fındıqçılıq birliyinin rəhbərləri əhalinin maraqlarına uyğun tələblərlə kütləni mövsümü işlə təmin edirlər. Nəticədə əldən zirək olanlar xeyli pul qazanırsa, elə fındıq sahibləri daha çox gəlir, ilkisiz məhsula nail olur.

* * *

Bu ayrı-ayrı tarixi, xronoloji məlumat, əlbəttə, rəmsi mənbədən götürülür. Bunun üçün hər hansı bir mübahisə açmaq, zənnimcə, lüzum yoxdur. Çünki həmin məlumatları açıq ensiklopediyada olduğuna uyğun təsdiq edən canlı Nic mühiti var. Sadəcə, həmin mühiti görmək, öyrənmək, müşahidə etmək kifayət edər.

Mən Nic haqqında ilk və yaddaşıma yazılan təəssüratı sadəcə, sevgimlə müharizələrini, söhbətlərini dinləmək üçün qonşu auditoriyaya keçdiyim və bu gün foxrlə Qukasi Voroşilin dilindən eşitmişəm. O gündən üzü bəri hər vaxt yaddaşım mənə diktə edib ki, Q.Voroşilin adını çəkdiyi kəndə gedim. Bir vaxt əziz müəllimimin adını böyük sevgi ilə çəkdiyi Nicin küçələrində addımlayım, bazarını görüm. Ən başlıcası, Nicin adını, tarixin yaddaşında saxlayan möhtəşəm abidələrini ziyarət edim.

Axı ki, belə bir gün mənə qismət oldu. Əlbəttə, beş-üç kəlmə ilə təəssüratımı yazaram.

Ancaq bir daha mənim qəlbimdə sevgi ilə adını yaşağdığım Q.Voroşilin

zamanına qayıdıram. İnsan nə qədər sevimli olur, insan nə qədər sanmıyyətli olur. İnsan, insan nə qədər, sanmıyyətli olur. Mən özümdən deyən, özünə güvənçli müəllimlərimin dilindən eşitmişəm: Q.Voroşil və Q.Qeybulla qədər Azərbaycan adəbi "ali, ümumiyyətə," ali" və həm də etnik tariximizə xidmət edən qeyri-türk mənsublu alimimiz yoxdur. Onların səmimi və vicdanlı xidmətləri sayəsində Azərbaycan türklərinə düşmən olan xaricilərə, hətta öz içimizdən olan xəyanətkarlara cavab vermək imkanımız yaranır. Çünki bu alımlərin hər biri sözün həqiqi mənasında vicdan meyarına tabe olan ziyalılar idi.

Q.Voroşil Azərbaycan sevdalı alim idi. Tələbəlik dövrümün şahidliyilə deyirəm ki, o tələbə gənclərimin və xüsusilə, türk sevdalı gənclərinin böyük rəğbətini və sevgisini qazanmışdı. Çünki müharizələrində riyakarlığa yol vermirdi. Bütün gücü ilə, elmi potensialı ilə həqiqətə söykənirdi. Və bələliklə, biz qədim Albaniyanın dil mənzərəsini Q.Voroşilin tütdiərində "kfayət qədər özümüzə aydın və doğma dilirdik. Çünki bu mənzərədə qədim Albaniyanın doğma sakinlərini - türkləri də görürdük. Q.Voroşil bunu bizə sevgi ilə, məhəbbətlə aşılayırdı. O, diktə edirdi ki, qədim Albaniyada aparıcı etnoslardan biri də türklər idi.

Doğrudur, Q.Voroşil həyatdan çox tez getdi. Ancaq bu gün mən təəssüf edirəm. Q.Voroşilin əsərlərinin toplanıb nəşr edilmədiyinə, onun tələbələrinin xatirələrinin toplanıb yaziya alınmadığına və s. bir çox məsələlərə görə. Əlbəttə, yenə də deyirəm ki, təəssüf edirəm.

Ancaq görünür, həyat təsir və əks təsir mühitində ədalətə bərqərar edir. Azərbaycan müstəqillik qazandı. Qədim Albaniyanın Şəyaqətli varislərindən olan udilər həqiqətə qayıtdılar. Onlar mənəvi mühitlərinə yeriyən erməni qəddarlığına qarşı çıxdılar və onu ikrahla rədd etdilər. Hətta bunu da inkar etmək olmaz ki, onlar bu xüsusda bizə qeyd etmək lazımdır ki, bu ikrahla rəddetmənin tarixi ən azı iki yüz illik bir mərhələni əhatə edir.

İki yüz illik mərhələ açıq çarpışma zamanıdır. Bu alban katolikosluğu ilə erməni qriqoryanlığının ölüm-dirim mübarizəsi idi.

Nic kilsəsinin, Nic dindarlarının erməni qriqoryanlığına qarşı mübarizəsi qanlı savaşlarla müşayiət olunur. Alban kilsəsi vandal əzəmətləri qorumaq-yaşatmaq-yaşatmaq üçün ən müxtəlif instansiyalara inadlı tələblər göndərirlər.

Tarixin ləyaqətli varisləri kimi alban keşişləri dəfələrlə ən müxtəlif instansiyalara müraciətlər edirlər, öz vəzifələrini dinlərini qorumaq zorunda olduqlarını, bildirdilər. Burada, tarixi ekskursu dayandırırıq.

Amma bircə cümlə deməyə də ehtiyac var:

Milli, mənəvi inad etnosu qoruyub-saxlaya bilib.

* * *

Sözümün bundan bu yanası günümün təəssüratıdır.

Bəlkə də, mənim Nicə səfər etməyim müəllimim Q.Voroşilin huzurunda mənəvi borcumu yerinə yetirmək qəsdi daşıyırdı.

Nicə gəldim.

Elə bil ki, müəllimimin huzurunda məndən qəpmuş olan ruhum təzədən bədənimə gəldi.

Doğmalarımın əhatəsində idim. Məndən soruşdular ki:

- Hara gedirsən? Nəyi görmək istəyirsən?

Mən - Nicə, Nicin tarixini göstərəcək yerlərə getmək istəyirəm, - dedim.

Əyləncə, yolüstü çox möhtəşəm, təəzəcə təmir olunmuş, ancaq hələ ziyarətçilərini qəbul edə bilməyən möhtəşəm alban məscidini gördüm. Buradakı səssizlikdən, hisslərimi, duyğularımı qədərincə ovundurub:

- Qabağa sür, daha qədim Nic məbədi var, ora getmək istəyirəm, - dedim.

Bir az getmiş qədim bir ənənəvi alban məbədinin möhtəşəm görüntüsü ilə üz-üzə gəldim. Oğluma:

- Maşını saxla, - dedim.

Möhtəşəm abidənin önündə "Çotari kilsəsi" sözlərini oxudum. Bildim ki, nəzərdə tutduğum yer elə bu məqamdır.

Mənimlə birgə gələn hər kəsə təklif etdim: Kim istəyirsə qədim Alban dünyasının möhtəşəmliyini görsün, buyurub gələ bilər.

İnsafən, hər kəs böyük həvəslə gəldi.

Çox geniş, əhatəli bir mühit - yaşıllıqlarla, tarixi çınarlarla möhtəşəmliyini bir qədər də artıq təzahür etdirən qədim Alban kilsəsi ilə üz-üzə idim. mənimlə birgə gələn dostə arxamca yeriyirdi. Elə həmin anda bir qadın, kənardan "namsöhbət olan adamlardan biri ayrılıb bizə yaxınlaşdı:

- Mən Rafiq Danakariyəm. Bu kilsənin xadiminəm. "Ziyarətiniz qəbul olsun", - dedi.

Hər halda onun sözlərində səmimiyyət var idi, qonaqpərvərlikdən, xalqımıza hədsiz qeyri bir intonasiya yox idi.

Rafiq Danakari həm də qabağa yeriyib bələdçilik elədi. Kilsəni ziyarət eləməyə mənəvi borcum bu idi.

Biz, əlbəttə, onun şərhlərini də, izahlarını da çox maraqlıqla qəbul edirdik. Xüsusilə, mənim üçün maraq doğuran o idi ki, Rafiq Danakari kilsənin həyətindəki qəbirləri göstərib "dedi:" Bu" məzarlarda "uyuyanlar" ömürlərini bu kilsədə keçirib, insanlara xeyir-dua diləyən udi dini xadimləridir.

Onların nüfuzu o qədər yüksək olub ki, ömürlərini bitirəndə elə bu kilsənin həyətində dəfn olunublar. Bütün bunları bizə kilsənin hörmətli xadimi, əgər belə demək mümkünsə, "indiki təsəvvürün keşişi Rafiq Danakari danışdı. Və buradaca onu da qeyd edim ki, Rafiq Danakari tarix üzrə fəlsəfə doktorudur. O, qədim alban dini adət-ənənələrini çox gözəl bilir. Özü də qədim dini ənənənin tələblərinə uyğun olaraq vacib olan səfərlərin hamısını icra edib. Rafiq "Danakari maraqlı" bir məlumat da verdi: qədim alban-udi ənənələrinə uyğun olaraq müqəddəs yerlərə səkkiz dəfə ziyarət edib. Beləliklə, o, müqəddəsdir. Mənim üçün maraqlı olan o idi ki, Rafiq "müq" sözünü səkkiz mənasında [illegible] olan şəxs müqəddəs yerlərə səkkiz dəfə ziyarət edib. Beləliklə, o, müqəddəsdir. Mənim üçün maraqlı olan o idi ki, Rafiq "müq" sözünü səkkiz mənasında [illegible] olan şəxs müqəddəs yerlərə səkkiz dəfə ziyarət edib. Beləliklə, o, müqəddəsdir.

(Davamı 16-cı səhifədə)